BUILDING TRUST

MƏHSULUN MƏLUMAT VƏRƏQİ

# Sika® Intraplast® Z

Sement bağlayıcılı qarışımlar üçün həcm artırıcı toz əlavə

## TƏSVİR

Sika® Intraplast® Z, sement bağlayıcılı ineksiya və məhlul qarışımlarına mikro qabarcıqlar daxil etməklə nəm qarışımı genişləndirən, həcmini və seqreqasiya olmadan axıcılığını artıran toz beton əlavəsidir.

## İSTİFADƏ YERLƏRİ

Sika® Intraplast® Z sement qarışımının bərkimədən əvvəl genişlənməsinə səbəb olur. Şişkinlik inert hidrogendən ibarət sıx paylanmış kiçik qaz baloncuklarının son dərəcə müntəzəm əmələ gəlməsi nəticəsində yaranır. Məhsul ümumiyyətlə aşağıdakı tətbiqlərdə istifadə olunur:

- Öncədən gərginləşdirilmiş kabel kanalları
- Daş və torpaq ankerləməsində
- Daşıyıcı plitələr
- Əvvəlcədən yerləşdirilmiş aqreqatlarla
- Tunel üzlənməsində

## ÜSTÜNLÜKLƏRİ

- Artırılmış şaxta dayanıqlığı
- Artırılmış axıcılıq və koheziya
- Yaş həcim genişlənməsi
- Qarışımın su miqdarını azaldır

## TƏSDİQLƏR VƏ SERTİFİKATLAR

AZS Uyğunluq Sertifikatı

## MATERIAL MƏLUMATI

| | |
|---|---|
| **Kimyəvi əsası** | Xüsusi qeyri-üzvi maddələrin qarışığı |
| **Qablaşdırma** | 5kg Plastik qab |
| **Görünüş və rəng** | Toz , açıq qəhvəyi |
| **Saxlama Müddəti** | İstehsal tarixindən etibarən 6 ay. |
| **Saxlama Şərtləri** | Məhsul açılmamış və zədələnməmiş qablaşdırmada +5°C ilə +35°C arasında temperaturda, birbaşa günəş işığından və şaxtadan qorunaraq düzgün şəkildə saxlanmalıdır. |
| **Sıxlığı** | 0,95 ± 0,05 kg/l |

## TƏTBİQ MƏLUMATI

| | |
|---|---|
| **Tövsiyyə olunan doza** | Sement bağlayıcısının 2%-i qədər, (50 kq sement üçün 1 kq Intraplast-Z) |

## MƏHSUL MƏLUMATLARININ ƏSASLARI

Bu məlumat vərəqində göstərilən bütün texniki məlumatlar laboratoriya sınaqlarına əsaslanır. Faktiki ölçülmüş məlumatlar nəzarətimizdən kənar vəziyyətlərə görə dəyişə bilər.

## DİQQƏT EDİLMƏLİ MƏHDUDİYYƏTLƏR

- Mexanik qarışdırma işlərinin aparıldığı ön gərginlikli beton işləri üçün 4 dəqiqə vaxt, su və bağlayıcı nisbəti 0,36 - 0,40 olması ən yaxşı nəticələr verir Ən effektiv qarışdırma ardıcıllığı su, sement və nəhayət qatqının qatılmasıdır.
- Sika® Intraplast® Z, mahiyyət etibarı ilə ön gərginlik və qrout dolğulama texnikası sahəsində çalışan mütəxəssis tərəfindən istifadə olunan məhsuldur.
- İneksiya məhlulunun xassələri, qarışdırma proseduru, sementin xüsusiyyətləri, su və qumun əlavə edilməsi və temperaturdan əhəmiyyətli dərəcədə təsirlənir.
- İş mühümlüyü üçün ilkin sahə sınaqları vasitəsilə ən uyğun proseduru müəyyən etmək lazımdır

## ƏTRAF MÜHİT, SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK

İstifadəçi, hər hansı məhsuldan istifadə etməzdən əvvəl ən son müvafiq Təhlükəsizlik Məlumat Vərəqi (SDS) ilə tanış olmalıdır. Təhlükəsizlik Məlumat Vərəqi (SDS), fiziki, ekoloji, toksikoloji və digər təhlükəsizliklə bağlı məlumatları təqdim edir, kimyəvi məhsulların təhlükəsiz istifadəsi, saxlanması və utilizasiyası ilə bağlı məlumat və məsləhətlər verir.

## TƏTBİQ TƏLİMATLARI

### QARIŞDIRMA

Qarışdırılmış olan sement/su qarışığına birbaşa əlavə edilir, lazım olduqda qum əlavə edilə bilər.

### AVADANLIQ TƏMİZLİYİ

İstifadə edildikdən dərhal sonra bütün alətləri və tətbiq avadanlıqlarını su ilə təmizləyin. Sərtləşmiş materialı yalnız mexaniki şəkildə çıxarıla bilər.

## YERLİ MƏHDUDİYYƏTLƏR

Qeyd edək ki, xüsusi yerli qaydalar nəticəsində bu məhsul üçün elan edilmiş məlumatlar və tövsiyə olunan istifadələr ölkədən ölkəyə dəyişə bilər. Dəqiq məhsul məlumatları və istifadələri üçün yerli Məhsul Məlumat Vərəqinə müraciət edin.

## HÜQUQİ QEYDLƏR

Bu məlumat vərəqi, xüsusəndə, Sika məhsullarının tətbiqi və son istifadəçi üçün tövsiyyələri, doğru anbarlama, qarışdırma, və standard ətraf mühit şəraitində Sika təlimatlarına uyğun tətbiq olunmaqla əldə edilmiş bilik və təcrübəyə əsaslananan məsləhətlərdir. Praktikada, materiallardakı, səthlərdəki və faktiki sahə şərtlərindəki fərqliliklər səbəbi ilə, bu məlumat vərəqindən, hər hansı yazılı tövsiyələrdən və ya təklif olunan hər hansı digər məsləhətdən xüsusi bir tətbiq üçün uyğunluğu ilə bağlı nə bir zəmanət, nə də hüquqi münasibətdən irəli gələn hər hansı öhdəlik götürülə bilməz. Məhsulun istifadəçisi məhsulun nəzərdə tutulan xüsusi tətbiq və məqsəd üçün uyğunluğunu test etməlidir. Sika öz məhsullarının xüsusiyyətlərini dəyişdirmək hüququnu özündə saxlayır. Üçüncü şəxslərin mülkiyyət hüquqlarına riayət edilməlidir. Bütün sifarişlər mövcud satış və çatdırılma şərtlərimizə uyğun olaraq qəbul edilir. İstifadəçilər, məhsulun yerli Məhsul Məlumat Vərəqinin ən son nüsxəsinə istinad etməlidirlər. Məhsul Məlumat Vərəqini aze.sika.com internet səhifəsindən və ya sorğu əsasında info@az.sika.com poçt adresindən təmin edə bilərlər.

**Sika Azərbaycan MMC**
Sumqayıt Kimya Sənaye Parkı
Kimyaçılar küç.1, AZ5002
Sumqayıt E119
Telefon: +99412 585 10 11
Faks: +99412 585 10 12